# Azərbaycan cəmiyyətində ailənin rolu

Ailə cəmiyyətin bünövrəsidir. Azərbaycan xalqı hər zaman ailə mövzusuna həssaslıqla yanaşmışdır. Bütün insanların mehriban ailə mühitində yaşamaq ehtiyacı vardır. Ailəsinə biganə olaraq laqeyid yanaşan insan qanadsız quş kimidir. Cəmiyyətdə ailəsinə soyuq olan insanlar haqqında heç vaxt yaxşı fikir söylənilmir.

Qədim zamanlardan ailədə yaranan qəliz məsələlər ağsaqqalların, ağbirçəklərin dəyərli məsləhətləri, tövsiyələri ilə həll olunmuşdur.

Ailə çoxşaxəli mövzudur. Ailə dedikdə od-ocaq, din-bərəkət, duz-çörək, qarşılıqlı hörmət və məhəbbət nəzərdə tutulur. Ailə məfhumu dedikdə təkcə ata-ana, uşaqlar yox, həmçinin ağsaqqallar, ağbirçəklər, əzizlər, ətrafdakı doğmalar nəzərdə tutulur.

Azərbaycan dövlətində ömür-gün sürüb yaşayan uzunömürlü ailələrin sayı az deyil. Uzunömürlü ailələrin sahibləri ilə söhbət etdikdə onlar gənc nəslə gözəl məsləhətlər vermişlər. Məsləhətlərdə gənclərə bildirmişdilər ki, əziz balalarımız, çalışın bir-birinizin hörmətini saxlayın, səbirli olun, ailə problemləri qarşısında bir-birinizə arxa çevirməyin. Hər zaman ailədə birlikdə olun.

Ailə həyatı həddindən artıq çətin, ancaq şərəfli ömür-gün yoludur. Nümunəvi ailə yolunda «mən» sözü yox, «biz» sözü işlənməlidir. Ailədə olan adi bir söz böyüdülərək söz-söhbətə çevrilməməlidir.

Azərbaycan xalqı bütün mədəni xalqlar kimi ailə dəyərlərinə hər zaman çox böyük önəm vermişdir. Düzlük, doğruçuluq, əməksevərlik, isti münasibət, böyüklərə hörmət, kiçiklərə qayğı, namuslu və qeyrətli olmaq ailə dəyərləridir.

Dünyanın bir çox ölkələrində uşaqlar 18 yaşı tamam olduqdan sonra valideyinlərdən ayrılaraq ayrıca sərbəst yaşayırlar. Belə hadisənin Azərbaycan ailəsində yaşanması xalqımızın mənəviyyatına xas olmayan xüsusiyyətdir. Azərbaycan ailəsində gənclər həddi-büluğa çatıb ailə qurduqdan sonra da hər zaman böyüklərin təcrübələrindən faydalanmışlar. Ölkəmizdə gənc nəslin yaşlı nəslə göstərdiyi diqqət və qayğı nəsillərdən-nəsillərə keçən milli dəyərlərdir.

Azərbaycan ailəsində yaşayan, yaşından asılı olmayaraq bütün valideyinlər ömürlərinin sonuna qədər övladlarına qayğı göstərməyi özlərinə müqəddəs borc bilirlər. İllər keçdikcə ağacın budaqları artdığı kimi, ailə böyüyüb genişləndikcə insanların ailəyə olan məhəbbəti azalmır, əksinə artır.

Ailənin müqəddəsliyini möhkəmləndirən amillərdən biri də sədaqətli olmaqdır. Məhəbbətdə vəfasızlıq edən şəxs hər zaman hörmətsiz olur. Ailənin şərəf və ləyaqəti toxunulmazdır.

Azərbaycan dövlətinin qanunvericiliyində ailə məsələlərinə geniş yer verilmişdir. Ölkəmizdə 15 may dövlət səviyyəsində 2011-ci ildən Ailə Günü kimi rəsmi qeyd olunur. Başqa sözlə desək, Ailə Gününün dövlət səviyyəsində kecrilməsi qərara alınmışdır. Bu isə dövlət tərəfindən mədəniyyətimizə, tariximizə, ailəyə böyük dəyər veriildiyini sübut edir.

Hər bir gözəl əxlaq, hərəkət, düşüncə, fikir isə ailədən başlayır.

**Günay KƏRİMOVA,**
**Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin metodisti.**

# 13 yaşlı xanəndə

Atayev Dəyanət Pənah oğlu bağlı-bağatlı Tüntül kəndində ziyalı ailəsində anadan olub. Babası Aydın uzun müddət Tüntül kənd tam orta məktəbində müəllim işləmişdir. Hazırda əmək pensiyaçısıdır. Atası Pənah isə mexanizatordur. Dəyanət hazırda kənd tam orta məktəbin VIII sinif şagirdidir. O birinci sinfə qəbul edilərkən bu sakit təbiətli oğlan uşağının belə bacarıqlı olduğunu heç kəs təsəvvür etməzdi. İllər bir-birini əvəz etdikcə Dəyanət öz qabiliyyəti, fitri istedadı ilə məktəb müəllimlərini heyran etdi.



Dəyanət nümunəvi şagird olmaqla yanaşı rayon icra hakimiyyətinin, təhsil şöbəsinin keçirdiyi tədbirlərdə fəal iştirak edir. Qeyd etmək yerinə düşər ki, o 2011-ci ilin sentyabr ayından rayon incəsənət məktəbinin muğam sinfində oxuyur. İncəsənət məktəbə gələn andan qolundan tutub onu səhnəyə çıxaran tanınmış müğənni Natiq Cəfərov olub. Müğənni Natiq Cəfərovun da Dəyanət kimi fitri istedadı, özünəməxsus avazı, oxumaq qabiliyyəti, vurğuları, pəsti, zili var. Elə bu cəhətlərinə görə də ona valeh, vurğun olanlar, sehrli səsinin ovsununa düşənlər çoxdur.

—Mən də bu şagirdin ümumi bilik səviyyəsinə, Azərbaycan muğamlarını, xalq mahnılarını ifa etmə qabiliyyətinə ilk günlərdən heyran qaldım. Onun səsi «Allah vergisidir». Bu sözləri Natiq Cəfərov demişdir.

13 yaşlı xanəndə Dəyanət bir neçə muğam müsabiqələrinin qalibidir. O, 2012-ci ildə Zaqatala şəhərində ümummilli liderimiz Heydər Əliyevin yubiley tədbirində iştirak etmiş, ifa etdiyi muğamlar və xalq mahnıları tamaşaçılar tərəfindən alqışlarla qarşılanmış, həmin müsabiqənin qalibi elan edilərək münsiflər heyəti tərəfindən tərifnamə almışdır. Eyni zamanda bu ilin əvvəlində Qəbələ şəhər mədəniyyət mərkəzində keçirilən Beynəlxalq uşaq muğam festivalında iştirak etmiş onun xoş avazla, sehrli səslə ifa etdiyi mahnıları yüksək qiymətləndirilmişdir. Uşaq muğam müsabiqəsində qalib yerlərdən birini tutmuş və prizə layiq görülmüşdür. Sevindirici haldır ki, Dəyanət bütün tədbirlərdə uğur qazanmışdır. İncəsənət məktəbində S. Vurğunun yubiley tədbirində, şəhər 2 saylı tam orta məktəbdə keçirilən gənc muğam həvəskarlarının müsabiqəsinin də qalibi olmuş, fəxri fərmanlarla təltif edilmişdir.

**Aslan CƏLİLOV.**

## ELANLAR

İmamverdiyeva Yasəmən Adil qızının adına verilmiş reyestr nömrəsi 406013012467 olan 0,04 hektar **torpaq sahəsinin şəhadətnaməsi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə (kənd) sakini Bağırov Aslan Abdulkərim oğluna verilmiş JN 994F №-li (kod 40600048) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

Cabbarov Cabbar Məlik oğlunun adına 6 nöyabr 2009-cu il tarixdə 1 nömrəli reyestr kitabının 56 nömrəli vərəqində qeydiyyata alınmış Qəbələ şəhəri Abbas Səhhət küçəsində mülkiyyətində olan və reyestr nömrəsi 406013007105-06301 qeyri yaşayış binasına (mağaza) dair sənəd **itdiyi üçün** etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

FHN-nin Şimal-Qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Elnur Müzəffərliyə**, yaxın qohumu

**KƏMALƏ XANIMIN**

vəfatı ilə əlaqədar başsağlığı verir.

FHN-nin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Nəcibə Ağayevaya**, dayısı

**EYNULLANIN**

vəfatı ilə əlaqədar başsağlığı verir.

## Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

**2014 -cü il üçün abunə yazılışı başlanmışdır.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

*Abunə «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № 33080019444900218149. VÖEN 4400103601.*

Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.

Telefonlar: (024)20 5-19-14, 5-15-56, mob. (050) 328-11-42.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.